

Azərbaycanın gülüş səhnəsinin tanınmış simalarından biri, xalq artisti Arif Quliyev gələn il 60 yaşını qeyd edəcək. Onun bu vaxt ərzində həyata keçirmək istədiyi böyük arzusu var. Son dəmə, hər kəsin komik aktyor kimi tanıdığı Arif Quliyev də ciddi rol oynamaq arzusunda imiş.

# Maaşa görə teatrı tərk edənlər

## Arif Quliyevin fikrincə belə aktyorlar istedadsızdır.

- Yeni teatr mövsümündə də qismətimə komik obrazlar düşüb. Əziz Nesinin "Diqqət, şəhərdə manyak var" komediyasının məşqlərini artıq başa çatdırmışıq. Oruc Qurbanovun quruluş verdiyi bu tamaşada mənə qaz nəzarətçisi, Afaq Bəşirqızına isə ev xidmətçisi rolu həvalə olunub. Yəni, əsas rolu Afaq Bəşirqızı oynayacaq. Ümumiyyətlə, mənim üçün ən doğma yer Musiqili Komediya Teatrıdır. Uzun illərdən sonra buraya qayıtmağım yarımçıq qalan arzularıma yol açdı. Çünki ilk addımlarımı burada atmışam. Səyavuş Aslan, Hacıbaba Bağırov, Nəsibə Zeynalova və başqaları ilə birlikdə bu teatrda işə başlamışam. Buna görə də bu teatra bağlıyam.

**- Daha çox özünüzü hansı rolda görürsünüz?**

- Həmişə rejissorların fikrinə inanmışam. Aktyorun öz yeri, rejissorun öz yeri var. Rejissor özü də aktyordur. O görür, duyur. Oynamağı isə bizə həvalə edir. Bu tamaşada başqa obrazlar var. Mənə elə gəlir, hərə özünü harada yaxşı hiss edirsə, orada da olur.Rejissora inanmaq aktyor üçün birinci şərtdir. Əlavələr etmək isə sənin sənətinin imkanlarından asılıdır.

**- Teatrların vəziyyəti necədir? Tamaşaçı, əsər problemi indi də özünü göstərir?**

- Bizim teatrda tamaşaçı problemi yoxdur.Tamaşaçı axını sərbəst olmalıdır. Sərbəst gələndə tamaşaçı tamaşaya daha çox önəm verir. Əsər sarıdan ola bilər ki, hansısa problemlər olsun. Düşünürəm ki, teatrlara yeni əsərlər lazımdır. Eyni zamanda, yeni gənclər cəlb olunmalıdır. Musiqili Komediya Teatrının direktoru Əliqismət Lalayev bu fikri dəfələrlə bildirib. Müğənni Röyanı dəvət ediblər, müzikl hazırlayacaqlar. Bu özü yaxşı göstəricidir. Teatrda iş mexanizmi düzgün qurularsa, ora tamaşaçı gələcək. Tamaşaçını güclə teatra dartmaq lazım deyil. Tamaşaçı öz qəlbi, sevgisi ilə sevdiyi teatra gəlməlidir. Gənclərə isə həm inanmaq, həm də da-

yaq olmaq lazımdır. Necə ki, bizə vaxtı ilə inanıb dayaq olublar.

**- Amma bəzi gənclər teatrlarda onlara imkan yaradılmadığından şikayət edirlər...**

- Mən bununla razılaşmıram. "Məşədi İbad"da əksəriyyəti gənclərdir. Gənclər həm Musiqili Komediya, həm də başqa teatrlarda var. Dünənin gəncləri biz idik. İndikilərə də inanmaq lazımdır ki, onlar daxili varlıqlarını, potensialını səhnədə nümayiş etdirsinlər.

**- Gənclər arasında gələcəyin Arif Quliyevini, Səyavuş Aslanını, Yaşar Nurisini görürsünüz?**

- Əlbəttə, sadalanan adları görürəm. Belələri çoxdur. İncəsənət Universiteti istedadlı incəsənət adamları yetişdirir. Mən də orada dərs deyirəm. Ümumiyyətlə, "yetişdirir" demək azdır, gərək özün bu işdə iştirak edəsən, kömək edəsən. Təəssüf ki, bəzi insanlar yalnız danışmağa üstünlük verirlər. Axı hər birimiz kənara çəkilib desək ki, "məndən bir dənədir", bu düz olmaz. Heç kəs əvəzolunmaz deyil. Hərənin öz adı, öz titulu var. Sabah Arif olmayanda Rəfael olacaq və sairə. Heç kim səhnəni tutub dayanmır.

**- Aktyorların maddi vəziyyəti necədir, nisbətən yaxşılaşıbmı? İndi də maaş azlığına görə sənəti tərk edənlər çoxdur?**

- Aktyorların əmək haqları bir qədər yaxşılaşıb. Mən prezident təqaüdçüsüyəm. Fikrimcə, sənət maaşla ölçülməməlidir. Sevdiyin sənətdə 1 manat da alanda insana xoş olur. Amma onu deyə bilərəm ki, son zamanlar vəziyyət yaxşılaşır. Sənətçi hər bir vəziyyətə dözməlidir. İncəsənət qurban tələb edir. Əgər mən bu sənəti sevirəmsə, onun yolunda hər bir əzaba dözməliyəm. Yarıda qoyuramsa, deməli, mən sənətkar deyiləm. Sabah kimsə "maaş azdır, mən sənətdən gedirəm" desə, bilin ki, onun istedadı yoxdur.

İstedad maddiyyatı unutdurur. Mən xorda oxuya-oxuya yarım ştata, sonra isə ştata keçmişəm. Daha sonralar isə aparıcı aktyorlardan olmuşam. 1973-cü ildən Musiqili Komediya Teatrında işləyirəm. 35 il az deyil. Gərək dözəsən ki, nəticəsini görəsən.

"Bir gün bir uşaq ağaca çıxıb oğurluq edir. Bağın yiyəsi onu görüb deyir ki, ay uşaq, düş aşağı. Yoxsa gedib dədəni çağıracağam. Uşaq da cavab verir ki, uzağa getmə, dədəm də o biri ağacdadır". Yəni bu da onun sevdiyi peşədir. Həvəs onu gətirib ora. Bütün peşə sahibləri öz işlərini belə həvəslə görürlər.

**- Teatr xadimləri arasında nədənsə həmişə narazılıqlar olub. Siz necə, hansısa aktyorun özünüzə qarşı qərəzli mövqeyini hiss etmisiniz?**

- Sənətdə belə insanlar çoxdur. Onu deyə bilərəm ki, mənim heç kimlə münaqişəm olmayıb. Ümumiyyətlə, belə hadisələrə qarışmamışam. Əliqismət müəllim də dedi ki, aktyorlar teatrda öz işi ilə məşğul olarsa, dedi-qoduya yer olmaz. Gəlirsən teatra, işləyir, yorulur və çıxıb gedirsən. Mən başımı aşağı salıb, öz işimlə məşğul olmuşam. Tanıdığım adamlara da bunu məsləhət vermişəm. Rol verdilər, götürürəm, vermədilər, gözləyirəm. Nəyə lazımdır "onunla oynamıram, bununla oynayıram" kimi ifadələr?! Sən işini gör, işinlə qalib gəl. Hünərin varsa, hünərini işində göstər. Yoxsa onun-bunun dalınca danışırlar. Belələrini tanımağa vaxtım belə yoxdur. Teatrda kifayət qədər işim olur.

**- Bu günün komediyası hansı səviyyədədir, insanları güldürmək çətinləşib?**

- İndiki gülüş səhnələri güldürməkdən çox düşündürür. Amma sanballı əsərlərə az rast gəlirəm. Tamaşaçı gərək neqativ halları düşünərək onu beynindən keçirib gülsün.Gülüş silahdır, atırsan nöqtəyə dəyir və o zərbə ilə neqativliyi təmizləyir.

**- Ən çox tənqid olunan komediya ustaları Rəfael və Coşqun cütlüyüdür. Onların qadın rollarını tənqid edənlər çoxdur. Siz necə, onları tənqid edənlərə qoşulursunuz?**

- Mənim onlara münasibətim yaxşıdır. İfaları yerindədir. Onlar ssenari necə yazılırsa, elə də ifa edirlər. Orada rejissor və ssenarist yozumu var. Onlar məcburdular ki, yazıldığı kimi qadın rolunda çıxış etsinlər.Mən özüm də "Qısqanc ürəklər" tamaşasında qadın rolunu ifa etmişəm.

**- Bu günə qədər komik rollarınızla sevilmisiniz. Ürəyinizdə oynamaq istədiyiniz hansı obrazlar qalıb?**

- Arzu edərdim ki, Ağa Məhəmməd şah Qacarı oynayım. Amma bilmirəm, oynaya bilərəm, ya yox. Mənə verərlər, ya yox, bunu da bilmirəm. Onu deyə bilərəm ki, belə bir arzum var. Lap əvvəllər Hamlet obrazını fikirləşirdim. Bir dəfə oynadım. Gülməli alındı. Sabah Ağa Məhəmməd şah Qacar rolunda səhnəyə çıxsam, qorxuram ki, roluma inanmasınlar. Bir dəfə "Qəm pəncərəsi" filmində ciddi rol oynamışam. İndi də ciddi rol oynamaq istəyirəm. Mənalı, düşündürücü dram əsərində obrazlı, insanları düşündürə biləcək rol ifa etmək arzumdur...

**• Z.RÜSTƏM**